*İnqilab Əkrəm oğlu FƏRZƏLİYEV*
*magistr, Azərbaycan Kooperasiya Universiteti,*
*Elmi rəhbər: "Menecment və ticarət" kafedrasının müdiri,*
*i.e.n., prof. Vasif Balaxan oğlu HƏZİYEV*

# EKOLOJİ VƏZİYYƏTİN SAĞLAMLAŞDIRILMASI VƏ ƏTRAF MÜHİTİN QORUNMASININ PRİORİTET İSTİQAMƏTLƏRİ

*Xülasə*

Ətraf mühitin deqradasiyası və təbii resurslardan təbiət qanunlarına məhəl qoymadan, gələcək nəsillərin və digər regionların maraqları nəzərə alınmadan və yalnız iqtisadi mənafe baxımından yanaşmaqla amansızcasına istifadə beynəlxalq ictimaiyyətin davamlı inkişaf və sosial məsuliyyət anlayışlarına marağının artmasına səbəb olmuşdur. Məhz bu baxımdan daha məsuliyyətli və dayanıqlı iqtisadiyyatın bir hissəsi olaraq yaşıl iqtisadiyyatın tətbiqinə zərurətin güclənməsi inkaredilməz bir zərurətə çevrilmişdir.

***Açar sözlər: Ekoloji problem, ətraf mühitin sağlamlaşdırılması, ekosistemlərin iqtisadiyyatı.***

## *Giriş*

Azərbaycan Respublikasının hazırkı inkişaf mərhələsində ətraf mühitin mühafizəsi və yaşıl iqtisadiyyata keçid kimi vacib problemlərin həllinin ölkə Prezidenti İlham Əliyevin daim diqqət mərkəzində olması beynəlxalq aləmə də yaxşı bəllidir. Ölkəmizdə bu sahədə əldə edilən uğurlardan və nəzərdə tutulan prioritetlərdən biri də ekologiya və ətraf mühitə səmərəli nəzarət mexanizminin qurulmasıdır. Bu mənada, hələ 1999-cu ildə ulu öndər Heydər Əliyev tərəfindən imzalanan və ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyənləşdirən "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi Ulu öndər Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin bilavasitə Sədrliyi ilə ekoloji problemlərin müzakirəsinə həsr olunmuş müşavirələrin keçirilməsi, ətraf mühitlə bağlı qəbul olunmuş dövlət proqramlarının icrasına göstərilən diqqət, mövcud ekoloji problemlərin daha səmərəli həll edilməsi məqsədilə müvafiq sərəncamların imzalanması, eləcə də, ölkəmizdə 2010-cu ilin dövlət rəhbəri tərəfindən "Ekologiya ili" elan edilməsi bu sahənin ölkəmizdə prioritet məsələlər sırasına qaldırılmasına parlaq nümunə olmuşdur. Son illər iqtisadiyyatımızın sürətli inkişafının nəticəsi olaraq artan gəlirlərin qeyri - neft sektoruna, ətraf mühitlə bağlı problemlərin həllinə yönəldilməsi ekoloji layihələrin həyata keçirilməsi imkanlarını xeyli genişləndirmişdir. Buna görə də, bir çox ölkələr maliyyə böhranına məruz qaldıqları bir dövrdə, ölkəmizdə infrastruktur layihələrinin icrası davam etdirilmiş, ekoloji problemlərin həlli istiqamətində görülən tədbirlər ön planda durmuşdur. Zaman keçdikcə yeni tələblər ortaya çıxır və onların həlli üçün yeni metodlardan istifadə olunmasına ehtiyac yaranır. Bu baxımdan, məhz carı ildən etibarən ölkəmizdə ilk dəfə olaraq irriqasiya məqsədilə dəniz suyunun duzsuzlaşdırılması, tullantı sularının təmizlənərək yaşıllıqların suvarılmasında təkrar istifadəsi istiqamətində pilot layihələrin icrasına start verilmişdir. Həmçinin avtomobillərdən atılan zərərli qazların miqdarının azaldılması məqsədilə, ölkəyə idxal olunan avtomobillərə ekoloji standartlarının tətbiq olunmasına başlanılmışdır. Eyni zamanda, ətraf mühitin sağlamlaşdırılması istiqamətində indiyə qədər görülmüş işlərin növbəti illərdə də davam etdirilməsi üçün Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair bir sıra əlavə tədbirlər planı hazırlanmışdır.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) tərəfindən İtaliyanın Genuya, İsveçrənin Cenevrə şəhərləri ilə yanaşı, Azərbaycanın Bakı şəhəri də Dünya Ətraf Mühit Gününün 2010-cu ildə Avropa regionunda qeyd edilməsi üçün əsas üç şəhərdən biri elan edilmişdir. "Dünya Ətraf Mühit Günü-2010"-a Avropa regionu üzrə öndərlik edəcək üç şəhərdən biri kimi Bakının seçilməsi heç də təsadüfi deyil. Bu, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının, sosial-mədəni həyatın bütün sahələrində, o

cümlədən, ekoloji tarazlığın qorunması, ətraf mühitin sağlamlaşdırılmasında aparılan ardıcıl və məqsədyönlü fəaliyyətin uğurlu nəticəsi olmuşdur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, dövlət və qeyri-hökumət təşkilatlarının, diplomatik korpusların, beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin, kütləvi informasiya vasitələrinin, ümumilikdə, 2000 nəfərdən çox əməkdaşlarının iştirakı ilə Zığ-Heydər Əliyev adına Hava Limanı magistral avtomobil yolunun 10-cu kilometrliyində ETSN tərəfindən təşkil olunmuş kütləvi ağacəkmə kampaniyasında cənab Kristof Buvye də iştirak etmişdir. Bu kampaniyasında, əsasən, zeytun, şam, sərv və tuya ağacları əkilmişdir.

Elə bu tədbir zamanı Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası tərəfindən təşkil olunmuş "Ekologiya mövzusunun kütləvi informasiya vasitələrində işıqlandırılmasına dəstək" birgə layihəsi-jurnalistlər arasında yazı müsabiqəsinin qaliblərini mükafatlandırmışdır. Eyni zamanda, respublikanın bütün şəhər və rayonlarında Ətraf Mühit Günü ilə bağlı ağacəkmə aksiyaları keçirilmişdir. Həmçinin Qəbələdə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə biomüxtəliflik mövzusuna həsr olunmuş Avropa Ətraf Mühit nazirlərinin yüksək səviyyəli konfransı keçirilmişdir. Konfransda Avropa ölkələrinin ətraf mühit sahəsində çalışan qurumlarının başçıları, iştirakçı ölkələrdən gələn ekspertlər və qeyri-hökumət təşkilatları tərəfindən "Yaşıl iqtisadiyyat, ekosistemlərin iqtisadiyyatı və biomüxtəliflik", "Xüsusi mühafizə olunan təbiət əraziləri və ekoloji şəbəkələr, ətraf icmalarda yoxsulluğun azaldılması", "Biomüxtəliflik Konvensiyasının 2010-cu ildən sonrakı məqsədləri və strateji planı: Avropa regionu üzrə prioritetlər" mövzularında keçirilən dəyirmi masalarda biomüxtəliflik üzrə beynəlxalq ekspertlərin çıxışları dinlənilmiş, müzakirələrin yekunu olaraq konfransın sonunda Qəbələ Bəyannaməsi qəbul olunmuşdur.

Azərbaycan Respublikasında ekoloji vəziyyətin sağlamlaşdırılması istiqamətində əsas hədəflər aşağıdakılardan ibarətdir:

- su ehtiyatlarının çirklənməsinin qarşısının alınması;
- biomüxtəlifliyin qorunması;
- yaşıllıqların artırılması;
- atmosfer havasının mühafizəsi;
- torpaqların deqradasiyasının qarşısının alınması, o cümlədən, neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi;
- bərk sənaye və məişət tullantılarının, o cümlədən, təhlükəli tullantıların idarə olunmasının təkmilləşdirilməsi.

Bu sahələrdə ekoloji problemlərin həlli istiqamətində müəyyən işlər görülmüş və bu işlər öz nəticələrini artıq göstərir. Belə ki, ötən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə təsdiq olunmuş "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair", "Meşələrin bərpa edilməsi və artırılmasına dair", "Azərbaycan Respublikasında Hidrometeorologiyanın İnkişafı Proqramı" və digər proqramlarda nəzərdə tutulmuş tədbirlər ardıcıllıqla həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən beş Milli Prioritetdən biri Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmasıdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə iki məqsədin - yüksək keyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanı - effektiv reallaşdırılmasına nail olunmaq hədəflənir.

Milli Prioritetlərdə qeyd edilir ki, iqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Yüksək keyfiyyətli ekoloji mühitin məqsədi ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılmalıdır. Bu prioritetlərə nail olunması öz növbəsində Azərbaycanda "yaşıl iqtisadiyyat" məsələsini aktuallaşdırır. Bu baxımdan

2021-ci ildə Şotlandiyanın Qlazqo şəhərində keçirilmiş İqlim Konfransında (COP 26) Azərbaycan Respublikası qlobal iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması ilə bağlı yeni təşəbbüslə çıxış edərək, 2050-ci ilə qədər əlavə könüllü öhdəlik kimi emissiyaların 40 faizədək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə 2050-ci ildə "netto sıfır emissiya" zonasının yaradılması niyyətini xüsusilə bəyan etmişdir. Əminəm ki, işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində "yaşıl enerji" zonası, "yaşıl kənd təsərrüfatı", "yaşıl nəqliyyat", "ağıllı" şəhərlər, "ağıllı" kəndlər yanaşmalarının tətbiqi, minlərlə hektar sahədə meşələrin bərpası burada 2050-ci ilə qədər "netto sıfır emissiya" hədəfinə çatmaqda böyük rol oynayacaqdır. Bildiyimiz kimi, qloballaşan dünyada insanların rifah səviyyəsinin artırılması və tələbatlarının ödənilməsində davamlılığın təmin olunması üçün iqtisadi, sosial və ekoloji aspektlərin hər birinin nəzərə alınması vacibdir. Məhz iqtisadi ədəbiyyatda bu aspektlərə vahid yanaşmanı təmin edən konsepsiya "yaşıl iqtisadiyyat" adlanır. "Yaşıl iqtisadiyyat" anlayışı, ilk növbədə, ekoloji iqtisadiyyat istiqaməti ilə birbaşa əlaqədədir. Zaman keçdikcə qeyd olunan bu problemlərin həll edilməsi üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi daha da aktuallaşır. Vaxtında həllini tapmamış, kiçik bir təbiət hadisəsi kimi izah olunan problemlər indi artıq bəşəriyyət qarşısında qlobal, qarşısıalınmaz fəlakətlərlə başa çata biləcək prosesə çevrilmişdi. Azərbaycan Respublikasında da ekoloji problemlərin həlli vacib sayılır və bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir.

Ölkəmiz mütərəqqi bəşəriyyətin qəbul etdiyi "Dayanıqlı inkişaf" konsepsiyasının prinsiplərinin həyata keçirilməsinə töhfə verir və iqlim dəyişmələrinə təsirlərin yumşaldılması istiqamətində fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin 11 mart 2020-ci il tarixli 560 nömrəli Sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası tərəfindən müvafiq fəaliyyət planı çərçivəsində tədbirlər həyata keçirilir. Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün Azərbaycanda iqlim dəyişmələrinə təsirlərin azaldılması istiqamətində bərpa olunan və alternativ enerji mənbələrindən və enerji səmərəli texnologiyalardan istifadənin artırılması, meşə ərazilərinin genişləndirilməsi və digər tədbirlər həyata keçirilir [4, s. 19]. Ölkədə qabaqcıl dünya təcrübəsi və yeni texnologiyaların tətbiqinə əsaslanaraq müasir ekoloji monitorinq sistemi yaradılmış, ətraf mühit komponentlərinin dəqiq analizi və qiymətləndirilməsi məqsədilə respublikanın müxtəlif bölgələrində, o cümlədən, ölkəyə daxil olan transsərhəd çayların üzərində ən müasir cihazlarla təmin olunmuş analitik tədqiqat laboratoriyaları təşkil edilmişdir. Milli Hidrometeorologiya Xidmətinin müasir tələblərə uyğun inkişafı üçün hidrometeoroloji müşahidə şəbəkəsi modernləşdirilmiş, proqnoz sistemi müasir telekommunikasiya və informasiya texnologiyaları ilə təmin olunmuşdur.

Bundan əlavə, Xəzər sahili boyu mərkəzi kanalizasiya sistemlərinə qoşulmayan tullantı sularının idarə olunması üçün modul tipli çirkab sutəmizləyici qurğuların qurulması nəticəsində 2007-2009-cu illər ərzində Abşeron yarımadasının 86-km-lik şimal sahilboyu ərazilərində, ümumilikdə, sutkalıq gücü 6140 kubmetr olan 16 ədəd çirkab sutəmizləmə stansiyası istismara verilmişdir. Nəticədə Xəzəryanı dövlətlər arasında ilk dəfə olaraq Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi sistemi yaradılmışdır. Sistemin fəaliyyəti Abşeron yarımadasının qeyd olunan sahəsinin bundan sonra təmiz qalmasına şərait yaradır. Nazirliyin qeyd olunan istiqamətlər üzrə fəaliyyəti gələcəkdə də daha irimiqyaslı layihələr çərçivəsində davam etdiriləcəkdir.

Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində müəyyən olunmuş düzgün siyasət indiyə qədər respublikamıza yalnız uğur gətirir. Bu baxımdan, qeyd edilməlidir ki, ətraf mühit sahəsində həyata keçirilən tədbirlər də ölkə rəhbərliyi tərəfindən təsdiq olunmuş və davamlı inkişaf prinsiplərinə əsaslanan dövlət proqramları və tədbirlər planları vasitəsilə həyata keçirilir. Ümumilikdə, ölkəmiz üzrə sosial-iqtisadi siyasətin düzgün və uğurla həyata keçirilməsi nəticəsində, onun tərkib hissəsi olan ekoloji siyasətin reallaşdırılması ilə əlaqədar ekoloji durumun sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə edilməsinə bundan sonra da nail olunacaqdır.

## ƏDƏBİYYAT


1. https://e-qanun.az/framework/3852
2. http://www.anl.az/down/meqale/ses/2010/avqust/131593.htm
3. http://www.anl.az/down/meqale/xalqqazeti/2010/mart/110203.htm

4. V.Ə.Qasımlı, R.Z.Hüseyn, R.F.Hüseynov, R.B.Həsənov, C.R.Cəfərov, A.B.Bayramova, "Yaşıl iqtisadiyyat" Bakı, 2022, "Azprint" nəşriyyatı
5. https://ereforms.gov.az/files/publications/pdf/az/b87cb7433650a8abbc72f0324cc1fd71.pdf
6. https://respublika-news.az/az/news/yasil-iqtisadiyyat-ve-sosial-ekoloji-hesabatliliq

***Ингилаб Акрам оглы Фарзалиев,***
***мастер: Азербайджанский Университет Кооперации***
***к.э.н., проф. Васиф Балахан оглу Хазиев***

## Приоритетные направления улучшения состояния окружающей среды и охраны окружающей среды

***Резюме***

Деградация окружающей среды и беспощадное использование природных ресурсов, игнорирование законов природы, игнорирование интересов будущих поколений и других регионов, подход только с точки зрения экономических интересов привели к повышению интереса международного сообщества к концепции устойчивого развития и социальной ответственности. Именно с этой точки зрения усиление необходимости применения зеленой экономики как части более ответственной и устойчивой экономики стало неоспоримой необходимостью.

***Ключевые слова: Экологическая проблема, здоровье окружающей среды, экономика экосистем.***

***Ingilab Akram Farzaliev***
***master: Azerbaijan University of Cooperation,***
***Phd in Economics, prof. Vasif Balakhan Haziyev***

## Priority areas of environmental health improvement and environmental protection

***Summary***

Degradation of the environment and merciless use of natural resources, disregarding the laws of nature, disregarding the interests of future generations and other regions, and approaching only from the point of view of economic interests, have led to an increase in the international community's interest in the concepts of sustainable development and social responsibility. It is from this point of view that strengthening the need to apply the green economy as part of a more responsible and sustainable economy has become an undeniable necessity.

***Key words: Ecological problem, environmental health, economy of ecosystems.***